*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   17 noyabr 2018-ci il   № 89 (2305)   Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Belarus hərbi sənaye sahəsində də çox yüksək səviyyə nümayiş etdirir və biz hərbi-texniki sahədə əməkdaşlığı davam etdirmək niyyətindəyik

*Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçi qəbul edərkən deyib. Ölkə Prezidenti çıxışında daha sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Belarus Respublikasının bu münaqişənin həlli istiqamətində münasibətini yüksək dəyərləndirib. Ölkə Prezidenti daha sonra deyib:*



- Bizim münasibətlər bir çox sahələri əhatə edir. Biz siyasi müstəvidə fəal qarşılıqlı fəaliyyət göstəririk. Artıq dediyim kimi, qarşılıqlı etimadın səviyyəsi o qədər yüksəkdir ki, biz ikitərəfli, regional, beynəlxalq gündəliyin bütün məsələlərini müzakirə edirik. İqtisadi sahədə yaxşı göstəricilər görürük. Əmtəə dövriyyəsinin artımı buna yaxşı nümunədir. Həmçinin artıq Belarusun Azərbaycanda, Azərbaycanın isə Belarusda ticarət nümayəndəlikləri fəaliyyət göstərir. Fikrimcə, sənaye kooperasiyası müstəsna səmərəlilik nümayiş etdirir. Aleksandr Qriqoryeviçlə nəzərdə tutduğumuz layihələr gerçəkləşdirilib. Bu gün bu, Azərbaycanın sənaye potensialını möhkəmləndirir. Bu, həmçinin təhsil, elm, mədəniyyət sahələrində də müşahidə edilir. Yəni, ölkələrimizi tammiqyaslı münasibətlər bağlayır. Həmçinin hərbi-texniki sahədə əməkdaşlıq da münasibətlərimizin mühüm amilidir. Biz Belarusdan hərbi texnika alırıq və onun keyfiyyətindən, göstəricilərindən çox razıyıq. Belarus hərbi sənaye sahəsində də çox yüksək səviyyə nümayiş etdirir və biz hərbi-texniki sahədə əməkdaşlığı davam etdirmək niyyətindəyik. Doğrudur, Siz bilirsiniz ki, bu, Ermənistanda, belə deyim, psixoz tutmalara səbəb olur. Bu da son dərəcə təəccüblüdür. Çünki Azərbaycan təkcə Belarusdan silah almır. Azərbaycana hərbi texnikanın ən iri tədarükçüsü Rusiyadır. Həmçinin biz Türkiyədən, İsraildən, Pakistandan, Avropa ölkələrindən böyük həcmdə silah-sursat və texnika alırıq. Buna görə də təəccüblüdür ki, iradlar müstəsna olaraq Belarusa göstərilir. Mən hesab edirəm ki, bu, Ermənistanda Belarusa qarşı acizlik kompleksinin təzahürüdür. Səbəblər də kifayət qədər sadədir. Həm Belarus, həm də Ermənistan eyni vaxtda müstəqillik əldə ediblər. Bu gün Ermənistan dünyanın ən yoxsul ölkələrindən biridir və həyatın girdabındadır. İyirmi il ərzində öz xalqını istismar və qarət edən hakimiyyətin erməni xalqı tərəfindən devrilməsi bunun parlaq təzahürüdür.

Belarus isə bir vaxtlar qoyulan sanksiyalara baxmayaraq, uğurla inkişaf edib və edir. Bu da Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun müdrik siyasətinin nəticəsidir. Belarus güclü, inkişaf edən sənaye və kənd təsərrüfatı, yüksək səviyyəli sosial müdafiəsi olan dövlətə çevrilib. Mən Sizin ölkədə dəfələrlə olmuş insan kimi bunu tamamilə obyektiv və səmimi deyirəm. Buna görə də bizə elə gəlir ki, Ermənistan tərəfindən Sizin ölkənizə qarşı deyilən əsassız iradlar öz məğzinə görə məhz bu amilə əsaslanır.

Həmçinin biz, təbii ki, regionumuzda baş verən vəziyyəti müşahidə edirik, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının bu yaxınlarda Qazaxıstanda keçirilmiş Sammitini çox diqqətlə izlədik. Biz buna laqeyd deyilik. Fikrimcə, bunu başa düşmək olar. Çünki Ermənistan Azərbaycan ərazilərini işğal edən ölkədir və əlbəttə ki, biz hərbi-siyasi təşkilat olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına hansı ölkənin nümayəndəsinin rəhbərlik etməsinə biganə deyilik. Bu məsələlərin tərəfdaşlar və dostlar arasında müzakirəsi təbiidir. Biz beynəlxalq siyasətin digər məsələlərini də müzakirə edirik. Bu da Ermənistanda hər hansı təşviş doğurmamalıdır. Ermənistanın Xarici İşlər Nazirliyinin bu yaxınlardakı bəyanatını beynəlxalq təcrübədə tamamilə yolverilməz hesab edirik. Xarici İşlər Nazirliyi digər ölkənin, xüsusilə də müttəfiq sayılan ölkənin prezidentinin hərəkət və sözlərini şərh edə və yanlış adlandıra bilməz. Yanlışlıq belə əməlləri özünə rəva bilən Ermənistanın Xarici İşlər Nazirliyinin davranışıdır. Görünür, bu, onların dünyanı və dünya xəritəsində öz yerlərini qeyri-adekvat dərk etmələrinin nəticəsidir. Eyni zamanda, bildiyiniz kimi, Ermənistan tərəfi bəyan edib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının problemləri mövcuddur. Yəqin ki, burada onlar haqlıdırlar. Bu problem, ilk növbədə, elə Ermənistanın özüdür və Ermənistanın törətdiyi problemlərdir. Biz, əlbəttə ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına baş katibin Ermənistan nümayəndəsinin təyinatını narahatlıqla qəbul etdik. Əvvəla, ona görə ki, bu dövlət Azərbaycana qarşı düşmənçilik siyasəti yürüdür. İkincisi də əməllərinə görə cinayət məsuliyyətinə cəlb olunmuş namizədin özünün şəxsiyyətinə görə. Burada da, deyildiyi kimi, bizdə personajın özünün hansı keyfiyyətlərə malik olması şübhə doğurmur. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçmiş baş katibinin rəhbərlik etdiyi və Ermənistan ordusu üçün ağır məğlubiyyətlə nəticələnən Azərbaycan və Ermənistan ordularının döyüş qarşıdurmaları zamanı rüsvayçı davranışını xatırlamaq kifayətdir. Yəni, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi mühüm beynəlxalq quruma bu şəxsin təyinatı müəyyən dərəcədə təşkilata hörmətsizlik idi. Bu adamın cinayətə görə təqib edilərək sürgün edilməsi isə beynəlxalq təcrübədə nadir hadisədir - beynəlxalq məmur bu minvalla məsuliyyətə cəlb olunur və üzv ölkələrə heç bir xəbər verilmir. Buna görə də bir daha demək istəyirəm ki, əgər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının hər hansı bir problemi varsa, o da Ermənistandır və onun yaratdığı problemlərdir. Bizim münasibətlərimizə gəlincə, onlar sarsılmazdır, möhkəm bünövrəyə malikdir, dostluq, qarşılıqlı hörmət, dəstək münasibətlərinə əsaslanır və gələcəyə yönəlib. Əminəm ki, mənim dost ölkəyə qarşıdakı səfərim münasibətlərimizi daha da möhkəmləndirəcək. Səfərin gündəliyi olduqca genişdir, xeyli sənəd imzalanacaq. Əminəm ki, həmin sənədlər bundan əvvəl reallaşdırılan digər razılaşmalar kimi gerçəkləşəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Komanda-qərargah hərb oyunlarında qarşıya qoyulan məqsəd və vəzifələr məharətlə yerinə yetirilib

*Hər bir xalqı dünyada tanıdan, məşhurlaşdıran, aparıcı söz sahibinə çevirən amillərdən biri də onun ordusunun mövcudluğudur. Tarixən hər bir millət ordusuna güvənib, onu milli qürur və fəxarət ünvanı sayıb. Qüdrətli ordusu olan dövlət nəinki maraq və mənafeyini layiqincə qoruya bilib, eyni zamanda dünya siyasətinə əsaslı təsir imkanları əldə edib.*



Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində ardıcıl və sistemli şəkildə aparılan ordu quruculuğu prosesi elə mühüm mərhələyə qədəm qoyub ki, nəinki arxa cəbhədə, hətta düşmənlə üzbəüz təmas xəttində yerləşən hərbi hissələrdə özünü qabarıq şəkildə göstərən nizam-intizam, səliqə-sahman, döyüş ovqatı, şəxsi heyətin mənəvi-psixoloji durumu, yüksək döyüş hazırlığı diqqət çəkir.

Müasir dönəmdə Azərbaycan Ordusunun üzərinə böyük məsuliyyət düşür. Azərbaycan məcburi şəkildə cəlb edildiyi müharibə şəraitində yaşadığına görə, Ali Baş Komandan İlham Əliyev ordunun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsini, maddi-texniki bazanın inkişaf etdirilməsini, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsini, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərə və hərbi idman oyunlarına cəlb edilməsini əsas tapşırıq kimi ordu rəhbərliyi qarşısında qoyub.

Ölkə Prezidentinin və Müdafiə Nazirliyi rəhbərliyinin diqqət və qayğısı nəticəsində müasir ümumqoşun döyüşünün hərbi elementlərinin qarşılıqlı fəaliyyəti və döyüş uzlaşmasının səviyyəsinin artırılması məqsədilə keçirilən təlimlərin və hərbi idman oyunlarının ordu həyatında özünəməxsus yer tutduğunu, günümüzün reallığına çevrildiyini xüsusi qeyd etmək lazımdır. Şəxsi heyətdə döyüş hazırlığının yüksəldilməsi, hərbi vərdişlərin təkmilləşdirilməsi, yeni texnoloji vasitələrin və silahların geniş tətbiqi ilə həyata keçirilən təlimlər və hərbi idman oyunları torpaqlarımızın azad edilməsi naminə şəxsi heyətin döyüş hazırlığının artırılmasına xidmət edir. Məqsəd müxtəlif formalı təlimlərə və hərbi idman oyunlarına üstünlük verməklə, Azərbaycan Ordusunun döyüş hazırlığını lazımi səviyyədə saxlamaqdır.

Bu məqsədlə Azərbaycan Ordusunun 2018-ci ilin hazırlıq planına əsasən, noyabrın 12-də komanda-qərargah hərb oyunları (KQHO) başlayıb.

Döyüş əməliyyatlarında idarəetmə orqanlarının qarşılıqlı fəaliyyət səviyyəsinin yoxlanılması və təkmilləşdirilməsi məqsədilə keçirilən hərb oyunlarına strateji, əməliyyat, əməliyyat-taktiki və taktiki idarəetmə orqanları, qoşun növləri və qismləri, eləcə də xüsusi təyinatlı qüvvələr cəlb edilib.

Azərbaycan Ordusunda keçirilən komanda-qərargah hərb oyunları (KQHO) çərçivəsində Əlahiddə Ümumqoşun Ordu komandanının rəhbərliyi altında Naxçıvan Qarnizonu qoşunları tam döyüşə hazırolma vəziyyətinə gətirilib.

İdarəetmə məntəqələri və praktiki fəaliyyətə cəlb edilən bölmələr "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonuna çıxarılıb. Birləşmə və hissələrin idarəetmə məntəqələri açılaraq xüsusi ixtisaslar üzrə çağırılmış heyətin praktiki qəbulu həyata keçirilib.

Komanda-qərargah hərb oyunlarının planına uyğun olaraq şərti düşmənin silahlı hücumunun dəf edilməsi məqsədilə Əlahiddə Ümumqoşun Ordunun motoatıcı və döyüş təminatı bölmələri praktiki fəaliyyət göstərib.

Yaradılmış tabor taktiki qrupları raket-artilleriya, aviasiya və hava hücumundan müdafiə bölmələri ilə qarşılıqlı əlaqədə şərti düşmənə əks-zərbə endiriblər.

Əməliyyatların aparılması zamanı müasir texnoloji vasitələrdən istifadə edilməklə qərargahlar arasında məlumatlar mübadiləsi tam həcmdə həyata keçirilib.

Hərb oyunlarına cəlb olunan vəzifəli şəxslərin təlimin əməliyyat şəraiti ilə bağlı məruzələri dinlənilib və qoşun qruplaşmalarının hücum üçün ilkin vəziyyəti tutmasına nəzarət təşkil olunub.

Komanda-qərargah oyunlarının gedişinə nəzarət etmək məqsədilə Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov komanda-qərargah hərb oyunlarının (KQHO) növbəti mərhələsi ilə bağlı dinləmə keçirib.

Döyüşü idarəetmə mərkəzində əməliyyat şəraiti ilə bağlı vəzifəli şəxslərin məruzələri dinlənilib, əməliyyatın keçirilməsi zamanı qoşunların idarə edilməsi və qarşılıqlı fəaliyyətinin təşkili məsələləri həyata keçirilib.

Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkova məruzə olunub ki, Azərbaycan Ordusunda keçirilən komanda-qərargah hərb oyunlarının planına əsasən qarşıya qoyulan vəzifələr birliklərdə mərhələlərlə icra edilib.

Bildirilib ki, birliklərin qərargahlarında əməliyyatın planlaşdırılması başa çatdırılır və komandirlər ayrı-ayrı istiqamətlərdə qoşunların döyüş fəaliyyətinin aparılmasına bilavasitə rəhbərlik edirlər. Eyni zamanda o da qeyd edilib ki, Azərbaycan Ordusunda keçirilən komanda-qərargah hərb oyunlarının (KQHO) planına əsasən Hərbi Hava Qüvvələri (HHQ) və Hərbi Dəniz Qüvvələrində (HDQ) taktiki müdaxilələr üzrə fəaliyyətlər icra olunub.

Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov komanda-qərargah hərb oyunları (KQHO) çərçivəsində Döyüşü idarəetmə mərkəzində açılmış idarəetmə məntəqələrinin fəaliyyətini izlədi.

General-polkovnik Nəcməddin Sadıkov müxtəlif qoşun növü və qismlərinin əməliyyatların planlaşdırılması və bölmələrin idarə olunması qruplarının fəaliyyətlərini yoxlayaraq müvafiq tapşırıqlar verdi.

Nəticədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, keçirilən komanda qərargah hərb oyunlarında qarşıya qoyulan məqsəd və vəzifələr məharətlə yerinə yetirilib.

Bu gün təlimlərə və hərbi idman oyunlarına cəlb edilən şəxsi heyət yaxşı bilir ki, ordumuz varlığımız deməkdir, bu sarsılmaz qüvvə, sözün əsl mənasında, xalqın gücüdür, xalqımızın minlərlə igid və mərd nümayəndələrini öz sıralarında birləşdirən yumruqdur. Ona görə də xalq öz ordusu ilə fəxr edir, onu yüksək məhəbbət hissi ilə sevir. Həyatda hər şeydən əziz olan ana Vətənlə bağlı hər bir tapşırıq onun ordusunun şəxsi heyəti üçün ən şərəfli və ülvi bir vəzifədir. Xalqın alovlu məhəbbəti, hörməti və qayğısı isə əsgərlərin qəlbini oxşayır, onları gələcək qələbələrə ruhlandırır.

**"Azərbaycan Ordusu"**

# Baş Qərargah rəisi KQHO yekunlarına dair müşavirə keçirib





Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov komanda-qərargah hərb oyunlarının (KQHO) yekunlarına dair müşavirə keçirib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Baş Qərargah rəisi nəticələri təhlil edərək bildirib ki, müxtəlif qoşun əməliyyatlarında qərargahların, idarəetmə məntəqələrinin qarşılıqlı fəaliyyətinin yoxlanılması və təkmilləşdirilməsi uğurla yerinə yetirilib.

Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirən general-polkovnik Nəcməddin Sadıkov qeyd edib ki, Müdafiə nazirinin göstərişinə əsasən komanda-qərargah hərb oyunlarında əsas diqqət ən yeni, o cümlədən kosmik texnologiyaların istifadəsinə yönəldilib və ilk dəfə qoşunların idarə olunmasında avtomatlaşdırılmış sistemlər tam həcmdə tətbiq olunub.

Baş Qərargah rəisi bildirib ki, hərb oyunlarında qoşunların qarşılıqlı fəaliyyətinin təşkilində qarşıya qoyulmuş bütün məqsədlərə nail olunub, tapşırıqların yerinə yetirilməsində şəxsi heyət yüksək bilik, vərdiş, bacarıq və peşəkarlıq nümayiş etdirib.

# Azərbaycan və İtaliyanın hərbi-mülki əməkdaşlıq üzrə ekspertlərinin görüşü keçirildi



*Azərbaycan Respublikasının və İtaliya Respublikasının Müdafiə nazirlikləri arasında 2018-2019-cu illər üçün ikitərəfli əməkdaşlıq Planı əsasında "Hərbi-Mülki Əməkdaşlıq (CIMIC) sahəsi üzrə ekspert görüşü" keçirildi.*

İkitərəfli görüş əsnasında İtaliya nümayəndə heyəti ulu öndər Heydər Əliyev abidəsini ziyarət etdikdən sonra Ümummilli Liderin müasir dövlət quruculuğunda gördüyü işləri əks etdirən fotogüşə qonaqlara təqdim edildi. Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev hərbi-mülki əməkdaşlıq sahəsində Azərbaycan Ordusunda həyata keçirilən tədbirlər barədə qonaqları məlumatlandırdı.

"Hərbi-Mülki Əməkdaşlıq" (CIMIC) mövzusunda seminar təşkil edildi. Tədbiri giriş sözü ilə açan polkovnik Aydın Əyyubov qonaqları və iştirakçıları salamladıqdan sonra keçirilən seminarın mahiyyətindən bəhs etdi və dünyanın güclü ordularına malik ölkələri ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində təşkil olunan seminar və təlimlərin ordumuzun təcrübəsinin artmasında mühüm rol oynadığını vurğuladı. Həmçinin hərbi qulluqçularımızın xarici ölkələrdə təşkil olunan beynəlxalq tədbirlərdə iştirak etməsinin də vacibliyini qeyd etdi.



Polkovnik-leytenant Emin Səfərov hazırlanan brifinqləri qonaqlara təqdim etdi. Brifinqin ilk hissəsi Azərbaycan Xalq Cümhuriyyətinin və hazırkı müstəqil Azərbaycan Respublikasının tarixi, coğrafi şəraiti, geosiyasi vəziyyəti ilə bağlı məlumatlardan ibarət oldu. Təqdimatda Dağlıq Qarabağ münaqişəsi zamanı evlərindən didərgin düşmüş məcburi köçkünlər və işğal altında olan torpaqlarımızda dağıdılan mədəniyyət abidələrimiz ilə bağlı materiallar da qonaqların diqqətinə çatdırıldı.

Brifinqin ikinci hissəsində "Azərbaycan Ordusunda İctimaiyyətlə Əlaqələrin rolu" adlı təqdimat qonaqlara nümayiş etdirildi. İdarənin kütləvi informasiya vasitələri ilə əməkdaşlıq çərçivəsində gördüyü işlər və təşkil olunan tədbirlərdən bəhs edən materiallar qonaqlara təqdim olundu.

İtaliyanın nümayəndə heyətindən polkovnik-leytenant Ennio Tebaldi və baş gizir Alberto Politano görüşlərin davamlı olmasında maraqlı olduqlarını vurğuladılar. İtaliya ordusunun zabiti Hərbi-Mülki Əməkdaşlığın (CIMIC) əsasları, prinsipləri, doktrinası haqqında mülahizələrini qonaqların diqqətinə çatdırdı. CIMIC-ın hərbi əməliyyatlarda hərbi-mülki əməkdaşlıq fəaliyyətinin planlaşdırılmasından və taktikasından ibarət təqdimatlar qonaqlara nümayiş olundu.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Vətəni qorumaq müqəddəs borcumuzdur

Bu gün ordu sıralarında xidmət edən gənc zabitlərimizə baxanda vətənpərvər, dövlətinə və xalqına sədaqətli, mərd və cəsur Azərbaycan gəncliyini görür, Vətənin keşikçiləri olan bu gəncliklə qürur hissi keçiririk.

Belə zabitlərdən biri də baş leytenant Emin Mehdiyevdir. Hələ yeniyetmə yaşlarından hərbi mundir geyinmək arzusunda olan zabit 2006-cı ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olur. Liseyi müvəffəqiyyətlə bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində motoatıcı ixtisasına yiyələnərək zabit kimi xidmətə yollanır. Ön xətdə nümunəvi xidməti ilə yuxarı komandanlığın rəğbətini qazanan zabit hərb peşəsinə yiyələnməyin qürurverici olduğunu bildirdi:



- Vətənə xidmət etmək hamımızın vətəndaşlıq borcudur. Hər birimiz Vətənin keşiyində dayanırıq. Düzdür, əsgər xidmətini başa vurduqdan sonra ehtiyata buraxılır, amma zabit ömrünü Vətənlə yaşayır. Bizim müqəddəs borcumuz Vətənə, onun çiçəklənməsinə xidmət etmək, hər qarış torpağına sinəmizi sipər edərək onu qorumaqdır. Torpaqlarımızın bir hissəsinin düşmən tapdağında olduğu vaxtda Vətən bizdən daha böyük hünər gözləyir. Bu gün mən də qanım və canım bahasına olsa belə Vətənimi qorumağa, onun ərazi bütövlüyü uğrunda vuruşmağa hazıram.

Zabitimizin də dediyi kimi, Vətən sevgisi əbədi və əzəli bir qəlb odudur, heç vaxt öz təravətini və gücünü itirmir. Elə buna görədir ki, insan bu sevgiyə köklənəndə dünyanın bütün gücü onun qoluna toplanır.

- Hərb peşəsi elə bir peşədir ki, insanların sənə münasibətini görəndə tutduğun peşəylə qürurlanırsan, - deyə zabit sözünə davam etdi. "Bir gün məzuniyyətə çıxıb evə gedirdim. Avtobusda ağbirçək ana harada xidmət etməyimlə maraqlandı. Düşmənlə üz-üzə mövqelərdə xidmət etdiyimi bildirdim. Üzümə baxıb gülümsündü və "ay oğul, bizi qoruyursan. Afərin sizin kimi övladlara", - dedi. Qürurverici bir hissdir. Burada gənc əsgərlərə öz xidmətimlə bağlı xatirələrimi danışıram və onlara da izah edirəm ki, doğma yurdu qorumaq müqəddəs borcumuzdur."

Gənc zabitimiz tabeliyindəki şəxsi heyətə qarşı son dərəcə tələbkar və qayğıkeşdir. Onların təlim-tərbiyəsi ilə məşğul olur, vaxtaşırı fərdi söhbət aparır, problemləri ilə maraqlanır. Burada komandirlər onlara lazımi diqqət və qayğı göstərirlər ki, əsgərin heç bir problemi olmasın.

"Mütəmadi olaraq əsgərlərlə söhbət edir, onlarla dostluq münasibəti qururuq", - deyə zabit sözünə davam etdi. - Belə olan halda əsgər səndən heç bir problemini gizlətmir və sənə inanır. Əgər tabeliyindəki şəxsi heyət komandirinə inanmasa, gələcək döyüşlərdə idarətmə yaxşı nəticə verməz və çoxlu itki verərək geri çəkilməyə məcbur olarsan. Amma əminəm ki, şəxsi heyətimiz istənilən an Ali Baş Komandanın əmri ilə döyüşə atılmağa və biz komandirlərlə birgə tarixə yeni səhifələr yazmağa hazırdır.

Zabitlə söhbətdən xoş təəssüratlarla ayrılırıq. Ona və onun timsalında bütün zabit, gizir və əsgərlərimizə "Vətən sizin kimi oğullara əmanətdir" deyərək seçdiyi çətin, məsuliyyətli və bir o qədər də şərəfli hərbçi həyatlarında uğurlar arzulayırıq.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 14-də Füzuli rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi polkovnik-leytenant Aleksandr Nepokrıtıx keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Genadi Petrika, Oqnyen Yoviç və YSPQ-nin rəhbəri polkovnik-leytenant Harri Okoner aparıblar.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***16 noyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***17 noyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki Əsrik Cırdaxan, Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Novruzlu, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU




# Müstəqilliyimiz əbədidir

*Azərbaycanda milli azadlıq hərəkatı genişlənirdi. Sovetlər İttifaqının qadağalarına baxmayaraq bu hərəkat geniş vüsət almışdı. Ermənistanın Azərbaycandan ərazi iddiası milli-azadlıq hərəkatının daha da genişlənməsinə səbəb oldu. 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. Milyonlarla insanın toplaşdığı Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişərək müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsildi.*

Xalq hərəkatı təkcə Bakıda deyil, Naxçıvan, Gəncə və Lənkəranda da kütləvi xarakter almışdı. Mitinqlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda anti-Azərbaycan siyasəti yeridən qurumun ləğv edilməsi, əks təqdirdə Ermənistana qarşı iqtisadi sanksiyaların tətbiq edilməsi, Azərbaycandan olan deputatların SSRİ Ali Soveti sessiyasında Ermənistanın təcavüzü ilə əlaqədar məsələ qaldırması başlıca tələblərdən idi. Bu tələblər Azərbaycan rəhbərliyini qane edirdi, lakin hökumət nümayəndələri mitinqi dayandırmağı tələb etdikdə mitinqçilər tələbləri yerinə yetirilməyincə meydanı tərk etməyəcəklərini bildirdilər. Burada "Moskvanın fitnələrinə son qoyulsun!", "Suverenlik!", "Azadlıq!" şüarları səslənməyə başlandı. Bundan Moskvaya təzyiq edib respublikalarda hakimiyyəti ələ keçirmək istəyən qüvvələr istifadə etməyə çalışırdılar. Bakının bəzi rayonlarında vəziyyət qəsdən gərginləşdirilir, xuliqanlıq hərəkətləri törədilirdi. Naxçıvanda dövlət orqanları binasına hücum edilmişdi, noyabrın 22-də Gəncədə əhali ilə ordu arasında qanlı toqquşma baş vermiş, 160 nəfər yaralanmış, üç əsgər və bir uşaq həlak olmuşdu. Noyabrın 24-də Bakı, Naxçıvan və Gəncə şəhərlərində xüsusi vəziyyət və komendant saatı tətbiq edildi. Küçələrə ağır silahlı qoşun hissələri yeridildi. Meydan səngimək bilmirdi. İnsanlar küçələrə çıxarılmış tankların lülələrinə qərənfillər taxır, əsgərləri camaatın tələbləri ilə tanış edir, qan tökməməyə çağırırdılar. Nümayişçilər meydana Azərbaycan SSR-in oraq çəkicli bayrağı ilə gəlmişdisə, bir neçə gün sonra - noyabrın 19-da burada ilk dəfə 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qaldırıldı. Hər gün yüz minlərlə adam tankların, əsgərlərin arasından keçib meydana axışırdı. Çox vaxt mitinqçilərin sayı milyon nəfəri ötürdü. Gecələr meydanda qalanmış tonqalların ətrafında minlərlə adam qalırdı. Xalq artıq mitinqlə mümkün olan nəticəni əldə etmişdi. Ölkə rəhbərliyi mövcud problemə Azərbaycan xalqının münasibətini bilmişdi. Lakin erməni millətçiliyinə, separatizminə qarşı heç bir tədbir görülmürdü. İndi təşkilatlanmaq, mübarizəni demokratik vasitələrlə davam etdirmək lazım idi. Cəmiyyətin bunu dərk edən qüvvələri mitinqdən tədricən uzaqlaşırdılar, meydanın mühasirə həlqəsi daraldılırdı. Dekabrın 3-də hərbi hakimiyyət mitinqçilərdən meydanı tərk etməyi tələb etdi. Dekabrın 4-də gecə hərbçilər hücum edib zorla meydanı boşaltdılar, burada gecələyən mitinqçiləri həbs etdilər. Meydan dağıdıldıqdan sonra da bir neçə gün Bakıda və başqa şəhərlərdə etiraz tətili və nümayişləri keçirildi...



Qüvvələri gələcək azadlıq mübarizəsi üçün qoruyub saxlamaq lazım gəlirdi. Dekabrın 4-dən 5-nə keçən gecə Sovet ordusu "Meydan hərəkatı"nı yatırmağa nail oldu. Minlərlə azadlıqsevər insan həbs edilərək zindanlara salındı. Lakin xalqın mübarizə əzmini qırmaq mümkün deyildi. Azərbaycanın müstəqilliyinə doğru uzanan yol 17 noyabrdan - Azadlıq meydanından başlanırdı. Az sonra tarix öz sözünü dedi...

Həmin o ağır məqamlarda ulu öndər Heydər Əliyev xalqın istiqlal ruhunu ölməyə qoymadı. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. İmperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından "Sovet" və "Sosialist" sözlərinin çıxarılması müstəqilliyimizin qazanılması yolunda çox böyük tarixi addım idi. Bununla Ümummilli Liderimiz milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu. Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. 17 noyabr isə xalqın milli-azadlıq hərəkatının başlanğıc günü - Milli Dirçəliş Günü kimi qeyd olunmağa başladı.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# Səmamızın keşiyində



Azərbaycan Ordusunda xüsusi yeri olan və daim ən müasir silah və texnika ilə təchiz edilən Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının cəsur şahinləri səmamızın keşiyində ayıq-sayıq dayanırlar. Azərbaycan Ordusunun gündəlik fəaliyyətində və döyüş potensialında öz gücü ilə fərqlənən hava hücumundan müdafiəçilərimizin peşəkarlığı və döyüş hazırlığı günü-gündən artmaqdadır. Yolumuz döyüş bölgəsində yerləşən hərbi hissələrimizdən birinin hava hücumundan müdafiə bölməsinədir.

Bizi ön xətdə döyüş növbəsi aparan hava hücumundan müdafiəçilərimizin xidmət bölməsində zabit Orxan Nəsirov müşayiət edir. Əslən Füzuli rayonundan olan Orxan Nəsirov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini uğurla bitirib, cəbhə xəttində yerləşən bölmələrimizdən birində xidmətə başlayıb. Zabit iki il öncə aprelin əvvəllərində ordumuzun əks-hücum əməliyyatlarında tabeliyində olan şəxsi heyətlə birlikdə fəal iştirak edib. Vətənpərvər, qorxmaz zabit bu gün də Vətənimizin keşiyində - döyüş bölgəsində xidmətini davam etdirir. Yolboyu həmsöhbətimiz şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının, sosial-məişət şəraitinin yüksək səviyyədə olmasından, ordumuzun gündən-günə artan gücündən söz açır. Zabit hava hücumundan müdafiəçilərimiz haqqında fikirlərini bizimlə bölüşdü:

- Məlumdur ki, bu günlərdə Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına əsasən, müxtəlif təlim mərkəzlərində hava hücumundan müdafiə bölmələrinin taktiki təlimləri keçirilib. Bu təlimlərdə bizim hərbi hissənin hava hücumundan müdafiə bölmələri də zenit-raket komplekslərindən döyüş atışlarını uğurla yerinə yetiriblər. Ümumiyyətlə, şəxsi heyətin qarşısında duran əsas məsələ onlara etibar olunmuş məkan zonasında hava hüdudlarımızın pozulmasının qarşısını almaqdır. Hazırda hava hücumundan müdafiəçilərimiz yüksək məsuliyyətlə döyüş növbətçiliyi aparır, hava məkanımızı sayıqlıqla qoruyurlar, - deyə zabit bildirdi.

Bölmənin şəxsi heyəti tədris prosesindən ayrılmadan müəyyən edilmiş mövqelərdə hava hücumundan etibarlı müdafiəni təmin edirlər. Bu məqsədlə hava müdafiəçilərimiz döyüş postlarında Azərbaycanımızın aydın səması uğrunda gecə-gündüz Vətənin keşiyini çəkirlər. Biz bölmənin ərazisinə daxil olanda şəxsi heyət təlim çalışmalarını yerinə yetirirdi. Onlar günün nizam qaydasına uyğun olaraq döyüş hazırlığı məşğələsində iştirak edirdilər. Bölmədə yaradılmış səliqə-sahman və şəxsi heyətin nizam-intizamı yüksək səviyyədə idi.

Nizam-intizamı, döyüş hazırlığı və peşəkarlığı ilə seçilən bu bölmənin komandiri baş leytenant Elnur Əhmədlidir. Məhz onun tələbkarlığı, vəzifəsinə vicdanla və məsuliyyətlə yanaşması sayəsində bölmə hava hücumundan müdafiənin ən hazırlıqlı və nümunəvi bölmələrindən birinə çevrilib. Elnur Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Düdəngi kəndində anadan olub. Heydər Əliyev adına Hərbi Liseydə oxuyub. Hərbi təhsilini Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində davam etdirib. Burada HHMQ ixtisasına yiyələnib. Əvvəlcə taqım komandiri təyin olunub. Hazırda bölmə komandiri vəzifəsində xidmətini davam etdirən baş leytenant E.Əhmədli bacarıqlı və peşəkar zabit kimi komandir heyətinin dərin hörmətini qazanıb. Öyrənirik ki, onun tabeçiliyində olan şəxsi heyət təlim mərkəzində keçirilən döyüş fənləri üzrə bölmələr arasında yarışlarda birincilik qazanıb.

- Biz burada cavabdeh olduğumuz ərazidə düşmənin alçaqdan uçan hava hədəfləri və yüngül zirehlənmiş texnikasının hücumunun qarşısını almaq üçün davamlı döyüş növbəsi aparırıq, - gənc zabit deyir: "Cavabdeh olduğumuz ərazi daim nəzarətimiz altındadır. Xidmətimizin xüsusiyyəti elədir ki, döyüşçülər daim yüksək döyüş hazırlığı vəziyyətindədirlər. İzah etməyə ehtiyac yoxdur ki, hava hədəflərinin yüksək sürəti bunu tələb edir. Zenit qurğularımızın heyətləri düşmənin mümkün hava hədəflərinə dərhal atəş açmağa hazırdırlar."

Müstəqilliyimizin ilk illərində ordumuzun inkişafını şərtləndirən əsas amillərdən biri yüksək peşəkarlığa malik zabit korpusunun yaradılması idi. Ümumiyyətlə, istənilən ölkədə çox haqlı olaraq zabit heyətini ordunun qızıl fondu adlandırırlar. Zabit heyəti yetərincə döyüş hazırlığına malikdirsə, mənəviyyatca təmiz, vətənpərvər, cəsurdursa, o ordunun potensialı yüksək, döyüş qabiliyyəti güclü və sarsılmaz hesab olunur. Sevindirici haldır ki, bu gün ordumuzda belə hazırlıqlı zabitlər yetişiblər. Onlar Vətənimizə, xalqımıza, dövlətimizə sədaqətlə xidmət edirlər.

Zenitçilər bilirlər ki, verilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirmək üçün lazımi peşə vərdişlərinə yiyələnməlidirlər. Ona görə də, döyüş hazırlığı məşğələlərində hərbi əməliyyatların gedişində lazım olan keyfiyyətləri qazanmaq üçün var güclərini sərf edirlər. Döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyət ixtisasa mərhələ-mərhələ yiyələnir. Fərdi hazırlıq dövründə zenitçilər əvvəlcə heyət nəfəri kimi üzərlərinə düşən vəzifələrin nədən ibarət olduğunu öyrəniblər. Sonrakı mərhələdə heyətə taqım şəklində qarşıya qoyulan vəzifələrin icrası tədris edilib. Hazırda taqım hazırlığı dövrü olduğundan daha geniş tərkibdə döyüş tapşırığını yerinə yetirmək üçün məşğələlər keçirilir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Babək Namazov, əsgərlər Seyfəddin Rəcəbov, İlham Ağayev, Toğrul Nağıyev, Toğrul Mürsəlzadə döyüş hazırlığı sınağından bacarıqla çıxaraq ixtisas, atəş hazırlığı, fiziki hazırlıq və digər fənlərdən imtahan verərək yüksək nəticə əldə ediblər.

- Döyüş hazırlığı dərslərində, məşq və təlimlərdə şəxsi heyət yüksək ixtisas və taktiki hazırlığa yiyələnirsə, öz gücünə və döyüş bacarığına inam qazanırsa, deməli, bununla da mənəvi-psixoloji hazırlığını artırmış olur, - deyə zabit Orxan Nəsirov bildirdi: "Biz əminliklə deyə bilərik ki, hava hücumundan müdafiəçilərimizin döyüş ruhu yüksəkdir və onlar qarşılarına qoyulan döyüş tapşırıqlarını yerinə yetirməyə qadirdirlər."

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Bayraq həm də bizim qələbə sevincimizdir

*Bu günlərdə ön xətdə yerləşən hərbi hissələrdə dövlət atributlarına hörmət və Vətənə məhəbbət hisslərinin təbliği məqsədilə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi Dövlət Bayrağı Gününə həsr olunan silsilə tədbirlər həyata keçirdi. Tədbirlərdə əsgərlərimizə bayrağımızın önəmindən danışıldı, 100 il ərzində keçdiyi çətin və şərəfli yol barədə məlumat verildi.*



Əsgərlər qarşısında çıxış edən dövlət qulluqçusu Zümrüd Səmədova onları bu əlamətdar gün münasibətilə təbrik etdi, Dövlət bayrağının hər bir Azərbaycan vətəndaşının qürur mənbəyi, müstəqil dövlətimizin şərəfi, qüdrəti olduğunu və gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasında böyük rol oynadığını bildirdi. Dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin, mənəvi dünyasının göründüyü ən şəffaf və dəqiq meyarın bayraq olduğunu vurğuladı. Azərbaycan Respublikasının Dövlət bayrağının Azərbaycan dövlətinin suverenliyinin rəmzi olduğunu dedi. Daim zirvələrdə dalğalanan üçrəngli bayrağımız bizim qələbə sevincimizdir, - deyən Zümrüd xanım Prezident, Ali Baş Komandan İlham Əliyevin bayrağımıza xitabən dediyi "Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir. Bizim bayrağımız qürur mənbəyimizdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir" dəyərli fikirlərini tədbir iştirakçılarının diqqətinə çatdırdı. Qeyd etdi ki, bu hikmətli sözlər insan qəlbini qeyri-adi riqqətə gətirir, riqqətdən köksümüz qabarır, qəlbimiz qürur hissi ilə dolur.

Çıxışını davam edən Z.Səmədova Dövlət Bayrağı Gününün bütün azərbaycanlılar tərəfindən qeyd edilməsini milli birliyin nişanəsi adlandıraraq əsgərlərə uğrunda minlərlə Vətən övladının canından keçdiyi bayrağımızı uca tutmağı tövsiyə etdi. "Bayraqları bayraq edən üstündəki qandır, torpaq əgər uğrunda ölən varsa, Vətəndir. Bizim bayrağımız müqəddəsdir. Çünki bu bayrağın qərar tutduğu yüksəklikdən enməməsi üçün ona canlar fəda olunub. Bu gün üçrəngli, aylı-ulduzlu bayrağımız respublikamızın hər yerində, Lələtəpə, Günnütdə dalğalanır. Həmin bayraq bizim qələbə sevincimizin nişanəsidir. İnamla, ilhamla, əzəmətlə dalğalanan bayrağımız həm də düşmənə göz dağıdır. Bayrağımızın kölgə salacağı Vətən torpaqları bizi gözləyir. Bu ünvan Qarabağımızdır. Düşmən artıq gözəl bilir ki, güclü, mətin, mərd Azərbaycan əsgəri tezliklə bayrağımızı orada da dalğalandıracaq. Cənab Ali Baş Komandanımızın Bakıda keçirilən hərbi paradda söylədiyi fikirləri xatırlayıram: "2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa apardı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq." Ölkə başçısının dediyi bu fikirlər Azərbaycan əsgərinə sonsuz güvəncin göstəricisi, Böyük Qələbə inamının təzahürüdür. Daim zəfər soraqlı olsun, Azərbaycan bayrağı!"



Dövlət qulluqçusu Sairə Rəsulova isə bayrağımızın tarixi haqqında əsgərlərimizə məlumat verdi. Qeyd etdi ki, Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilmişdir. Milli bayrağımız ilk dəfə həmin gün Bakıda Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qaldırılmışdır və 1920-ci ilin aprelindədək dövlət statusuna malik olmuşdur. Xalqımız üçrəngli bayrağından məhrum edilsə də, ona olan sevgini daim ürəyində yaşatmışdı. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın ümummilli lideri



Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı olaraq təsdiq edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan etmişdir. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev dövlət rəmzləri sırasında xüsusi yeri olan üçrəngli bayrağımıza daim həssaslıqla yanaşmışdır. Cənab Ali Baş Komandanın təşəbbüsü ilə paytaxtımızın ən gözəl yerində, Xəzərin sahilində Dövlət Bayrağı Meydanının və Dövlət Bayrağı Muzeyinin yaradılması, daha sonra isə noyabrın 9-nun Dövlət Bayrağı Günü kimi elan edilməsi hər bir ölkə vətəndaşının qürur hissini artıran, dövlətçiliyimizə məhəbbət və ehtiramını yüksəldən yeni bir amilə çevrildi.

Çıxışının sonunda Sairə xanım, tezliklə Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə Azərbaycan əsgərinin üçrəngli bayrağımızı Şuşada, Laçında Kəlbəcərdə... dalğalandıracağına və belə görüşlərin işğaldan azad olunan torpaqlarımızda baş tutacağına inamını əminliklə bildirdi.

Tədbir mütaliənin təbliği, vətənpərvərlik hisslərinin aşılanması, kitab oxumağa olan marağın yüksəldilməsi məqsədilə əsgərlərimizə Azərbaycan və dünya ədəbiyyatından seçilmə kitabların hədiyyə edilməsi ilə davam etdi.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində növbəti intizamsızlıq qeydə alınıb. Rabitə alayında nizamnamədənkənar münasibətlər zəminində cinayət hadisəsi baş verib.

Ermənistan ordusunun ələhiddə rabitə alayında xidmət edən baş operator, yefreytor Armen Xaçatryanla xidmət yoldaşı sürücü-elektrik, sıravi Rafael Gonyan arasında mübahisə baş verib.

Nəticədə yefreytor A.Xaçatryan tərəfindən yaxşıca əzişdirilən sıravi R.Gonyan ağır bədən xəsarətləri ilə tibb məntəqəsinə yerləşdirilib.

Hərbi qulluqçular arasında münaqişəyə səbəb R.Gonyana məxsus pul kartının yefreytor A.Xaçatryan tərəfindən zorla alınması olub.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində silahla davranış qaydalarının pozulması nəticəsində daha bir cinayət hadisəsi törədilib.

Xüsusi təyinatlı hərbi hissənin 4-cü dəstəsi rəisinin döyüş hazırlığı üzrə müavini mayor Norayr Boduryan Nubaraşen atış mərkəzində keçirilən döyüş atışları məşğələsinə rəhbərlik etdiyi zaman xidməti vəzifələrinin icrasına məsuliyyətsiz yanaşıb. Onun laqeydliyi nəticəsində kəşfiyyatçı-snayperi, müqaviləli hərbi qulluqçu sıravi Olinka Mnatsakanyana təhkim edilmiş silahda güllə qaldığını görməmişdir.

Sonradan O.Mnatsakanyan həmin silahdan atəş açmaqla cinayət törətmişdir.

Hərbi hissə komandanlığı hadisəni ictimaiyyətdən gizlədərək ört-basdır etməyə çalışır. Faktla bağlı hüquq-mühafizə orqanlarına məlumat verilməyib.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrində baş alıb gedən özbaşınalıq artıq zabitlər arasında da nizamnamədənkənar münasibətlər zəminində cinayətlərin artmasına səbəb olur.

Bu günlərdə işğalçı ordunun 18-ci motoatıcı diviziyasında baş vermiş insident orduda böyük rezonans doğurub. Aralarında yaranan münaqişə nəticəsində avtomobil xidmətinin rəisi diviziyanın qərargah rəisini döyüb.

Hərbi hissənin nizami hissəsində iki yüksək vəzifəli zabit arasında baş verən mübahisə sonradan əsl davaya çevrilib. Avtomobil xidməti rəisi tərəfindən vəhşicəsinə döyülən qərargah rəisi ağız-burnu qan içində hərbi hissənin tibb məntəqəsinə aparılıb. Hadisədən dərhal sonra diviziya komandiri xidmət yerinə gələrək hərbi hissəyə "Həyəcan" siqnalı elan edib.

Xidməti araşdırmadan sonra tədbir görülməsi məqsədilə sənədlər hərbi polisə göndərilib.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində daha bir əsgərin döyülməsi faktı qeydə alınıb.

Yervand yaşayış məntəqəsində xidmət edən erməni əsgər Yura Babayanın valideynləri övladlarının komandirlər tərəfindən mütəmadi olaraq döyülməsi ilə bağlı hərbi polisə şikayət ediblər.

Fakt ictimaiyyətdən gizlədilsə də, hadisə hərbi polis tərəfindən araşdırılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**



*Vətənpərvərlik*

# Hərb Tarixi Muzeyində ekskursiya

*Uşaqların, bu anlamda məktəblilərin vətənpərvərlik ruhunda formalaşması olduqca zəruri məsələlərdəndir. Məktəblərdə bu istiqamətdə diqqətəlayiq tədbirlər həyata keçirilir. Tarixi yerlərə, muzeylərə ekskursiyalar da belə tədbirlər sırasındadır.*

Bakı şəhəri Nizami rayonu 220 saylı məktəb-liseyin 4d sinif şagirdləri bu günlərdə Hərb Tarixi Muzeyində ekskursiyada oldular. Sinif rəhbəri Gülnarə Quliyeva bu ekskursiyanın məktəbdən xaric zəruri tədbir olduğunu bildirdi:

- Vətən geniş məfhumdur. Biz çalışırıq ki, hər bir şagird Vətənini təkcə torpaq sahəsi kimi dərk etməsin. Milli-mənəvi dəyərlərimizi öyrənə-öyrənə yaşatsınlar. Yaşada-yaşada öyrənsinlər. Tədris prosesində hərb tariximiz haqqında şagirdlərə əhatəli məlumatlar verilir. Belə tədbirlərin və ekskursiyaların təşkili məktəblilərin yüksək milli-mənəvi dəyərlərlə böyüməsində, dövlət rəmzlərimizə sevgi və ehtiramın aşılanmasında, həmçinin şagirdlərin vətənpərvərlik tərbiyəsində böyük rol oynayır.

Şagirdlərdən Fidan Cəfərzadə, Zəhra Cəfərli, Firəngiz Xalıqova, Əli Cəfərli və digərləri bu ekskursiyanı heç zaman unutmayacaqlarını bildirdilər. Onların baxışlarındakı sevinc hərb tariximizə məhəbbətin nişanəsidi. Bu məhəbbət dərinləşəcək, rişələnəcək. Bu şagirdlər əsl vətənpərvər kimi formalaşacaq, Vətən qarşısında vətəndaşlıq borcunu layiqincə yerinə



yetirəcəklər. Oğullarımız isə əsgər olaraq Vətənin keşiyində dayanacaqlar. İnanırıq ki, onların hər biri xələflərinin hərbi xidmət yolunu uğurla, məsuliyyətlə davam etdirəcəklər.

Şagirdlərin Hərb Tarixi Muzeyinə ekskursiyası vətənpərvərlikdir, Vətən sevgisinin tərkib hissəsidir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

*Sıra hazırlığı*

# "İstəyirəm ki, Ağdama üçrəngli bayrağımızı mən sancım!"

Sıra hazırlığı məşğələsi bitdikdən sonra gənc zabitimizlə söhbət etmək üçün fürsət yaranır. Əslən Lənkəran şəhərindən olan leytenant İlkin Abdullayev bildirdi ki, ordumuza layiqli zabit olmaq onun uşaqlıq arzusudur. "Uşaq vaxtlarımdan hərbi formada yanımdan keçənləri görəndə üzümdə təbəssüm yaranardı, onlara hərbi salam verərdim. Həmişə özümə sual verərdim: "Nə üçün ordu lazımdır?" Tariximizi öyrəndikcə başa düşdüm ki, ordu müstəqilliyimizin və ərazi bütövlüyümüzün qarantıdır. Həmin andan mən də Vətənin müdafiəçilərinin sırasında olmağı qərara aldım. Müddətli həqiqi hərbi xidmətim bitdikdən sonra sənədlərimi gizir hazırlığı kursuna təqdim etdim. Təhsil aldığım müddət ərzində hərbin sirlərinə dərindən yiyələndim. Hər bir əsgər general olmaq istədiyi kimi, mən də zabit olmaq istəyirdim. Xidmət müddətində əldə etdiyim nailiyyətlərə görə komandir heyəti məni ehtiyat zabit hazırlığı kursunda təhsil almağa göndərdi. Hər zaman komandirlərimin etimadını doğrultmağa çalışıram. Tabeliyimdə xidmət edən əsgərlərimə tədris müddətində mənimsədiklərimi aşılayaraq onların Vətənimizə, millətimizə layiqli övlad olmalarına səy göstərirəm".

Hərbi xidmətə Qəbələ rayonundan çağırılan əsgər Seymur Məmmədov bildirdi ki, qalib ordunun əsgəri olmağıyla qürur duyur. "Vətənimizə layiqli əsgər olmaq nə qədər çətindirsə, bir o qədər də şərəflidir. Bunun üçün hər birimiz məşğələlər və asudə vaxtdan səmərəli istifadə etməliyik. Hərbi biliklərimizi artıraraq, qarşıya qoyulan tapşırıqları və vəzifələri yüksək məsuliyyətlə yerinə yetirərək, xalqımızın etimadını doğrultmalıyıq. Komandirlərimiz düşmənə qarşı qətiyyətli, prinsipial olmağı, üzərimizdə işləyərək peşəkarlığımızı daim artırmağı, ərazi bütövlüyümüzün qorunmasında əlimizdən gələni əsirgəməməyi tövsiyə edirlər".



"Uşaqlıqdan valideynlərim mənə doğulub böyüdükləri Ağdamın gözəlliyindən danışardılar", - bu sözləri Xətai rayonundan hərbi xidmətə çağırılan əsgər Tural Səlimov bildirdi. - Həmişə deyərdilər ki, Ağdam rayonu füsunkar təbiətilə Qarabağımızın ürəyi sayılırdı. Bir vaxtlar günəş şüaları ilə nurlanmış el-obamızın üzərində indi qara buludlar kök salıb. Ancaq bu müvəqqətidir. Tezliklə Ali Baş Komandanımızın döyüş əmri ilə işğalda olan torpaqlarımızı azad edəcəyik. Bunun üçün komandirlərimizin öyrətdiklərini dərindən mənimsəyirik. Arzu edirəm ki, Ağdama üçrəngli bayrağımızı mən sancım.

"Xidmətə gəldiyim ilk gündən komandirlərin diqqət və qayğısı ilə əhatə olunmuşuq. Müasir standartlara cavab verən yataqxana, yeməkxana və sanitar qovşağı bizim istifadəmizdədir. "Açıq qapı" günündə valideynlərim əsgərlər üçün yaradılan şəraiti görəndə çox sevindilər. Çalışırıq ki, bu cür şəraiti qoruyub saxlayaq. Bizim üçün yaradılmış şəraitə görə Ali Baş Komandan İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığımızı bildiririk. Dərslərdə əldə etdiyimiz nailiyyətlərlə çalışıb onların etimadını doğruldacağıq. İşğal altında olan dədə-baba yurdlarımızı mənfur ermənilərdən azad edəcəyik", - deyə Neftçala rayonundan ordu sıralarına çağırılan əsgər Elvin Talıbov bildirdi.

Bir daha əmin oldum ki, əsgərlərimiz işğal altında olan torpaqlarımızı hər an azad etməyə hazırdırlar!

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Milli Məclisdə 2019-cu ilin dövlət büdcəsi ilə bağlı müzakirələr başa çatıb

Noyabrın 15-də Milli Məclisin plenar iclasında 2019-cu il üçün dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi davam etdirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri Oqtay Əsədov iclası açıb.

Əvvəlcə Milli Məclisin işlər idarəsinin müdiri Firudin Hacıyev parlamentin gələnilki xərclər smetası barədə məlumatı diqqətə çatdırıb. Bildirilib ki, Milli Məclisin və onun Aparatının 2019-cu il üçün xərclər smetasının layihəsi mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq ştat cədvəllərinə, inzibati binalarında, mühəndis qurğularına xidmət göstərən təşkilatlarla bağlanmış müqavilələrə və proqnozlara əsasən tərtib edilib.

Qeyd olunub ki, Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində Milli Məclisin və onun Aparatının saxlanması üçün 27 milyon 69 min 600 manat vəsait nəzərdə tutulub. Xərclər smetasının ümumi dəyərinin 68,5 faizini əməkhaqqı fondu və əməkhaqqı ilə əlaqədar ayırmalar təşkil edir.

Deputatlar məsələ ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Palatanın 2019-cu il üçün xərclər smetası barədə məlumat verib. Bildirib ki, 2019-cu ildə Azərbaycan Respublikası Hesablama Palatasının saxlanılması üçün 4 milyard 4 milyon 368 min 941 manat vəsait proqnozlaşdırılır. Bu vəsait 2018-ci ilin proqnoz göstəricisindən təqribən 6,5 faiz çoxdur. Artım əsasən bəzi yardımçı dövlət qulluqçularının inzibati təsnifat üzrə yerdəyişməsindən irəli gəlir və yanacağın qiyməti ilə bağlıdır. Palata üzrə xərclər smetasının ümumi məbləğinin 84,3 faizi əməyin ödənilməsini təşkil edir.

Parlamentdə müzakirələr zamanı qaldırılmış məsələlərə münasibət bildirilməsi üçün hökumətə noyabrın 23-dək vaxt verilib.

# Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsinə isti qış geyimləri verilib

*Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə xidmət edən əsgərlərinə növbəti isti qış geyimləri təqdim edilib.*

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, bu münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov çıxış edərək, avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsinin tapşırıldığını bildirib.

Nazir qeyd edib ki, qarşıya qoyulan tapşırığın icrası istiqamətində məhdud fiziki imkanlı 20 qadın tərəfindən toxunmuş 1165 cüt yun corab və 86 yun şərf əsgərlərimizə hədiyyə edilir. O diqqətə çatdırıb ki, 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar, ümumilikdə, 2500 cüt yun corab və 200 yun şərf toxunaraq hərbi hissələrə təhvil verilib.

Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik Vüqar Hüseynov və əsgər Samir Əfəndiyev hərbi qulluqçular adından göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər.

Sonda yun corab və şərflər hərbi hissəyə təhvil verilib.

*Əsgər dostluğu*

# Qarabağı azad edəcəyik!

*Sizlərə bir hekayə danışmaq istəyirəm. Əsgər dostluğu haqqında Birinci Dünya müharibəsi tarixindən qalma dostluq hekayəsi. Hərbi xidmətə yollanmazdan öncə təsadüfən oxumuşdum. Kimə aid olduğunu bilmirəm. Bəlkə də həqiqət, bəlkə də bir insanın təxəyyülüdü. Əsas odur ki, bu hekayə insan ruhuna dostluğu aşılayır.*



- Müharibənin qızğınlaşdığı ən qanlı günlərdən biriydi. Tərəflər sığındıqları mövqelərdən bir-birilərinə ölümünə atəş açırlar. Həmin anda əsgər Jim ən yaxın dostu Hansın səngərdən irəlidə düşmən atəşindən yaralandığını və yerə yıxıldığını görür. Dostuna kömək etmək istəyir, lakin ardı-arası kəsilməyən atəşdən başını bir saniyə olsun belə səngərdən çıxara bilmir. Amma ən yaxın dostu Hans gözünün qarşısında can verir.

Jim səngərin içində sürünərək komandirinin yanına gedir. "Komandir, icazə verin Hansı xilas edim", - deyir. Komandir əsəbləşərək etirazını bildirir: "Canını təlükəyə atmağa dəyər? Böyük ehtimalla ölüb. Sənin də ölmənə icazə verə bilmərəm". Əsgər Jim ağlayaraq komandirinə yalvarır. Dostunu xilas etmək üçün lazım olan icazəni alır və irəli atılır.

Möcüzə nəticəsində Jim güllə yağışı altından dostu Hansı çiyninə alaraq səngərə qədər daşıyır. Komandir yaralı Hansı müayinə edir. Jimə əsəbləşərək: "Mən sənə Hansın öldüyünü dedim. Sən canını təhlükəyə atdın. Dəydimi bu riskə girməyə?".

"Dəydi komandir, dəydi", - ağlayaraq Jim deyir. Daha da əsəbləşən komandir Hansın öldüyünü deyir. Buna görə canını təhlükəyə atmağın düz olmadığını bildirir.

Yanına çatanda ölməmişdi. Dediyi sözləri eşitmək ölümə dəyərdi. Hans "gələcəyini bilirdim Jim, gələcəyini bilirdim..." deyərək son nəfəsini verdi.

Hərbi xidmətə bu hekayənin təsiri altında yollandım. Özümə belə dostlar qazanmaq, onlarla çiyin-çiyinə döyüşərək torpaqlarımızı azad etmək niyyətindəydim. Şükürlər olsun ki, bu gün birgə xidmət etdiyim, hər anımızı birgə keçirdiyimiz əsgər dostlarım var. Corc Qafarov, Şahin Xasayzadə, Orxan Sultanov belə dostlardandı. Hamımızın bir arzusu, bir məqsədi var: Qarabağı işğaldan azad etmək. Keçirilən təlimlərdə birgə iştirak edir, döyüş hazırlığımızı artırır, dərslərimizə diqqətlə yanaşırıq. Hər birimiz dərk edirik ki, hazırlıqlı əsgər döyüş meydanında qalib qəhrəmandı.

Onu da qeyd edim ki, ölkə rəhbərliyi tərəfindən bizlər üçün müasir məişət şəraiti yaradılıb. Maddi-texniki təminatımız yüksək səviyyədədir. Bu şəraitdə xidmət aparmağın özü insana güvənc verir. Təlimlərdə, dərslərdə həvəslə iştirak edir, döyüş qabiliyyətimizi artırırıq. Həmçinin hərbi hissəmizdə əsgəri münasibət əsl döyüşçü həmrəyliyinə çevrilib, hamı özünü doğma bir ailədə olduğu kimi hiss edir. Döyüş bacarıqlarımızı artırmaq üçün əsgərlərimiz arasında formalaşan dostluğa önəm veririk. "Əsgər əsgər üçün dost və qardaşdır". Bu həmrəylik düşmən üzərində qələbə üçün etibarlı təminatdır. Hansı bir əsgərin problemi, qayğısı ortalığa çıxarsa, hər kəs onunla dərdləşir. Çalışırıq ki, sıralarımızda kimsə məyus görkəmdə olmasın.

Sonda Corc Qafarovun hər zaman dediyi bir fikri xatırlamaq istəyirəm. Hansı ki, dediyi sözlər mənim dostluq haqqındakı fikirlərimi bütövləşdirir. "Elə bir dost seç ki, sən onun uğrunda ölməyi düşünərkən, o sənin üçün ölmüş olsun". Həqiqətən də, hərbi xidmətdə yaranan dostluq möhkəm olur və silahdaşın üçün ölümü gözə ala bilirsən. Çünki döyüş meydanında ondan əziz adam yoxdur.

Əsgərin tribunasına yazdığım bu yazını oxuyanların böyük əksəriyyəti Azərbaycan Ordusunda xidmət edən mənim kimi əsgərlərdi. Bir anlıq düşünün: belə dostlarınız varmı? Ölməsin deyə, canınızı sipər edəcəyiniz, ölməyin deyə canından keçə biləcək? Bəli, var deyə bilirsinizsə, dünyanın ən xoşbəxt insanlarından birisiniz. Dəyərini yaxşı bilin can dostlarınızın...

**Əsgər**
**Yusif ŞAHSUVAROV,**
**"N" hərbi hissəsi**

*Hərbi texnikalar, silahlar*

# S-400 "Triumf" zenit-raket sistemi



S-400 "Triumf" zenit-raket sistemi kəşfiyyat təyyarələrini, pilotsuz uçuş aparatlarını, idarəetmə və radiolokasiya aşkaretmə, manevrlərin qurulması üzrə təyyarələrini, taktiki, həmçinin strateji aviasiyanı, ballistik raketləri - orta uzaqlıqlı, taktiki, eləcə də operativ-taktiki ballistik raketləri, hipersəsli hədəfləri, perspektiv və müasir hava hücum vasitələrini məhv etmək üçün hazırlanıb. Bu sistem ilk dəfə 2007-ci ildə döyüş növbəsinə qoyulub. "Triumf" yeganə sistemdir ki, bir neçə növ raketlərdən istifadə etməklə işləyə bilər. Kompleksdən gecə və gündüz müxtəlif fiziki-coğrafi, müxtəlif iqlim şəraitində və güclü radioelektron qarşıdurmasında istifadə oluna bilər. Digər komplekslərdən fərqli olaraq S-400 "Triumf" zenit-raket sistemi daha geniş istifadə zonasına malikdir. Onun hədəfləri maksimal məhvetmə sürəti saniyədə 4,8 kilometr, hədəfləri aşkaretmə uzaqlığı 600 kilometr, maksimal aerodinamik hədəfləri məhvetmə uzaqlığı 400 kilometr, minimal isə 2 kilometr, maksimal olaraq hədəfləri məhvetmə hündürlüyü 30 kilometr, minimal olaraq raketin hədəfi məhvetmə yüksəkliyi 0,005 kilometr, maksimal olaraq taktiki ballistik hədəfləri məhvetmə uzaqlığı 60 kilometr, minimal isə 7 kilometrdir.



"Triumf" zenit-raket kompleksi eyni vaxtda 36 hədəfi məhv edə bilər. Eyni vaxtda 72 ədəd raketi tuşlaya bilər. Səyyar vəziyyətinə 5-10 dəqiqə ərzində hazırlanır, kompleksin vasitələrinin döyüş vəziyyətinə 3 dəqiqə ərzində gətirilir. Yerüstü vasitələrin istismar müddəti 20 il, zenit idarəolunan raketlərin istismar müddəti bir ildən az deyil.

S-400 "Triumf" kompleksinin tərkibinə aşkaretmə radiolokasiya sistemi, idarəetmə məntəqəsi, altı ədəd zenit-raket kompleksinin daxilində radiolokasiya idarəetmə sistemi, müxtəlif növlü raketlər, buraxıcı qurğu, antena postu üçün hərəkət edən qüllə və s. cihazlar daxildir.

"Triumf" zenit-raket sistemi müasir elmi-texniki nailiyyətlər əsasında tərəqqi texnologiyalardan istifadə etməklə yaradılıb. Kompleksin bütün iş prosesi avtomatlaşdırılmış, bütün əməliyyatlar komanda məntəqəsindən yüksək keyfiyyətli kompüterlərlə həyata keçirilir. Hava hücumundan müdafiə kompleksinin bütün vasitələri yüksək keçidliyə malik təkərli şassi üzərində yerləşdirilib. Bütün manevrləri dəf etməyə qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## İraqın şimalında 19 terrorçu zərərsizləşdirilib



Türkiyə Hərbi Hava Qüvvələri qırıcılarının İraqın şimalındakı terror məntəqələrini bombalaması nəticəsində 19 terrorçu məhv edilib.

Hava zərbələri Zap, Hakurk, Kandil, Avaşin-Basyan və Sinat-Haftan bölgələrinə endirilib. Bununla da son dörd gündə İraqın şimalında məhv edilən terrorçuların sayı 57-yə çatıb.

Diyarbəkirin Kocaköy rayonunda isə PKK üzvlərinin hazırladığı 70 kiloqram ağırlığında partlayıcı aşkar olunub. Uzaqdan idarə olunan bomba partladılaraq zərərsizləşdirilib.

Hakkarinin Çukurca rayonunda PKK terrorçularının yol inşaatında çalışan işçilərə silahlı hücumu qeydə alınıb. Üç işçinin yaralandığı bildirilir.

## İsrailin Müdafiə naziri Aviqdor Liberman istefa verib



İsrailin Müdafiə naziri Aviqdor Liberman noyabrın 14-də mətbuat üçün təşkil olunan xüsusi çıxış zamanı öz postundan istefa verdiyini bildirib.

"Mən İsrailin Müdafiə naziri postundan istefa verirəm. Biz təhlükəsizlik baxımından Qəzza sektorunda fəaliyyətimizi sona çatdırmalıydıq. Fikrimcə, Qəzzada terror infrastrukturuna vurduğumuz zərbələr yetərli olmayıb. Müdafiə naziri postunda qalacağım təqdirdə İsrailin cənub bölgəsində yaşayan əhalinin gözlərinə necə baxacağımı bilmirdim", - deyə Aviqdor Liberman deyib. O, İsrail hökumətinin HƏMAS təşkilatı ilə atəşkəsə razılıq verməsini terrora təslim olmaq kimi dəyərləndirib.

## Cənubi Koreya kəşfiyyatı: KXDR nüvə-raket tədqiqatını davam etdirir



KXDR Kim Çen Inla ABŞ Prezidenti Donald Tramp arasında keçirilən sammitdən sonra da nüvə-raket tədqiqatını davam etdirir.

Bunu Cənubi Koreyanın Milli Kəşfiyyat Xidmətinin nümayəndələri parlament deputatları üçün təşkil olunan qapalı brifinqdə bildiriblər. Onların məlumatına əsasən, Pxenyan hazırda nüvə başlıqlarının ölçüsünün azaldılması istiqamətində işlər aparır.

Deputatlardan birinin sözlərinə görə, Cənubi Koreyanın xüsusi xidmət orqanları KXDR-in raket obyektlərinin aktivliyini diqqətlə izləsə də, qeyri-adi bir şey hiss etməyiblər. O, həmçinin Seul və Vaşinqtonun Şimali Koreyanın nüvə-raket fəaliyyəti ilə bağlı normal kəşfiyyat mübadiləsi apardığını bildirib.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp KXDR lideri Kim Çen Inla yeni görüşünün gələn ilin əvvəlində baş tuta biləcəyini deyib. ABŞ və Şimali Koreya arasında ilk yüksək səviyyəli görüş isə iyunun 12-də Sinqapurda keçirilib. Sammitin nəticəsinə əsasən, Pxenyan Koreya yarımadasının nüvəsizləşdirilməsinə hazır olduğunu, ABŞ isə bunun əvəzində KXDR-ə təhlükəsizlik zəmanəti verəcəyini elan edib.

## Karakasda xüsusi əməliyyat: 7 nəfər öldürülüb, 60 nəfər həbs olunub



Venesuela polisinin xüsusi əməliyyatı nəticəsində Karakasda azı 7 nəfər öldürülüb, 60 nəfər həbs olunub.

Bu barədə ölkənin Daxili İşlər naziri Nestor Reverol açıqlama yayıb. Nazirin sözlərinə görə, əməliyyat quldurların zabitə hücum edərək silahını almaları və onun üz nahiyəsinə atəş açmalarından sonra həyata keçirilib.

"Globovision" telekanalı bildirib ki, cinayətkar qrup binalardan birində gizlənib və polisə silahlı müqavimət göstərib.

**AZƏRTAC-ın materialları əsasında**

*Fiziki hazırlıq*

# Hazırlığımızı daim artırırıq

*"İdman sağlamlığın, cəsurluğun mənbəyidir" fikri idmanla məşğul olan hər bir gəncin həyatının devizidir. Hər gün yüksək əhval-ruhiyyədə olmaq, enerjili və sağlam həyat yaşamaq istəyənlər idmanla müntəzəm məşğul olmalıdırlar.*





Hərbi hissələrdə şəxsi heyətin fiziki hazırlığına böyük diqqət yetirilir. Gündəlik qaçış, 100-500 metr məsafəyə kroslar, qışda və yayda turnik məşğələləri orqanizmi möhkəmləndirir, əsgərin fiziki hazırlığı təmin edilir. Sağlam, güclü, mənəvi-psixoloji və döyüş hazırlıqlı şəxsi heyətə malik Azərbaycan Ordusu üzərinə düşən missiyanı yerinə yetirməyə hazırdır.

"N" hərbi hissəsində şəxsi heyətin idmanla məşğul olmasının şahidi olduq. Bölük komandirinin nəzarəti altında əsgərlər alətlərdə bir sıra idman hərəkətləri ilə məşğul idilər. Onlar növbə ilə alətlərdə müxtəlif çalışmalar yerinə yetirir, daha hazırlıqlı, daha da üstün olduqlarını göstərməyə çalışırdılar.

"Əsgərin fiziki hazırlığı başlıca şərtdir", - deyə zabit Asim Seyidov söhbətə başladı. - Əgər belə olarsa, əsgər fiziki hazırlıq məşğələsində yaxşı nəticə göstərər, uğur qazanar. Ona görə də əsgərlərin fiziki hazırlığına xüsusi diqqət ayırırıq. Şəxsi heyət idmana böyük maraq göstərir. Onlardan bir neçəsi ordu sıralarına çağırılanadək idmanın müxtəlif növü ilə məşğul olublar. Hətta bəziləri bir çox beynəlxalq səviyyəli yarışların iştirakçısı olub. Fiziki hazırlıq döyüş hazırlığının tərkib hissəsidir. Buna görə də idman saatlarının səmərəli keçirilməsi üçün bütün imkan və vasitələrdən istifadə edirik.

Əsgər Taleh Camalov bir neçə il cüdo ilə məşğul olub və yaşadığı rayon üzrə keçirilən yarışlarda birinci və ikinci yerlərə layiq görülüb. Əsgər bildirdi ki, daim hərəkətli idmanla məşğul olduğundan məşğələlərdə heç bir çətinlik çəkmir. "Hələ kiçik yaşlarımdan idmana marağım var idi. Daim öz üzərimdə çalışır, məşq edirdim. Daha çox döyüş və hərbi filmlərə tamaşa edir, fərdi hazırlığımı artırırdım. Ordu sıralarına gəldikdən sonra məşqlərimi daha inamla davam etdirirəm. Arzum həmişə ölkəmizi keçirilən turnirlərdə layiqincə təmsil etməkdir. Hamı kimi mən də bayrağımızı ən yüksək pillələrdə dalğalandırmaq istəyirəm. Bu gün ordu sıralarındayam. İndi ən böyük arzum tezliklə işğalda olan torpaqlarımıza qayıtmaq və bayrağımızı Qarabağda dalğalandırmaqdır."

Həm idman həvəskarı, həm də futbol azarkeşi olan əsgər Nicat Əhmədov xidmətə Şəki rayonundan çağırılıb. O deyir ki, gənc nəslin idmana həvəs göstərməsi çox vacibdir. İdmanla məşğul olanlar həm güclü, həm də çevik olurlar.

Əsgərlər Elşad Adıgözəlov, Asif Əhmədli, Adıgözəl Qasımov, Pünhan Talıbov və başqaları da hər bir gəncin sağlam yetişməsində idmanın əhəmiyyətli rolunu qeyd etdilər.

Şübhəsiz, fiziki hazırlığı yüksək olan Azərbaycan əsgəri savaşda düşmənə göz açmağa macal verməyəcək, xalqımıza qələbə müjdəsi bəxş edəcəkdir.

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

# Asudə vaxt



*Leytenant Ömər Muradlının nəzarəti altında əsgərlərimiz ideoloji otaqda toplaşaraq asudə vaxtlarında dama, şahmat oynayır, eyni zamanda kitab, jurnal və qəzet oxuyurdular. Əsgərlərin bəziləri mehriban və səmimi söhbət edir, bəziləri arasında isə gərgin idman mübarizəsi gedirdi. Leytenant Ö.Muradlı hərbi hissədə asudə vaxtın idman təşkili qaydasından söz açdı:*

- Asudə vaxt şəxsi heyətin hərtərəfli inkişafı, fiziki, mənəvi və estetik mədəniyyətini yüksəltmək üçün ən gözəl vasitədir. Bu gün bütün hərbi hissələrdə asudə vaxtı düzgün təşkil etmək üçün sinif otaqları, ideoloji otaqlar, istirahət otaqları yaradılıb. Belə şərait əsgərlərin mənəvi cəhətdən kamilləşməsində müsbət rol oynayır. Buna görə də günün nizam qaydasına uyğun olaraq onlara asudə vaxtlarında istirahət etmələri üçün hərtərəfli şərait yaradılır. Əsgərlərimiz mütəmadi olaraq voleybol, futbol, stolüstü oyunlar oynayır, şənbə və bazar günləri valideynləri ilə görüşür, televizorda müxtəlif proqramları seyr edirlər. Əsgərlərimizin döyüş, atəş, fiziki, sıra hazırlıqları yüksəkdir. Aprel döyüşləri bir daha sübut etdi ki, Azərbaycan güclü orduya malikdir və doğma torpaqlarını işğaldan azad etmək üçün hər bir Azərbaycan əsgəri son damla qanına qədər döyüşməyə hazırdır.

Zabitlə söhbətimizdən sonra asudə vaxtlarının təşkil olunması barəsində fikirlərini öyrəndik.

Sumqayıt şəhərindən ordu sıralarına çağırılan əsgər Nəsir Cahangirov hərbi xidmətin ona qazandırdığı müsbət keyfiyyətlərdən söz açdı: "Hərbi xidmət məni qorxmaz, mərd, cəsur döyüşçü kimi yetişdirib. Komandirlərimizin sayəsində döyüş, atəş, fiziki hazırlıqlarımızı, tarixi biliklərimizi artırırıq. Yuxarı komandanlığın bizə göstərdiyi diqqət və qayğı nəticəsində sosial-məişət şəraitimiz yüksək səviyyədədir. Bizim borcumuz isə şərəflə xidmət etməkdir".

Əsgər Şamil Abbasov asudə vaxtlarının səmərəli keçdiyini bildirdi: "Bizim üçün yaradılan şəraitdən çox razıyam. Komandirlərimiz bizə həm hərb sənətinin sirlərini öyrədir, həm də qayğı ilə yanaşırlar. Biz də xidmətimizi düzgün təşkil edir, verilən əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetiririk. Hər birimiz torpaqlarımızı işğaldan azad etmək üçün döyüşə hazırıq. Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə doğma torpaqlarımızı düşmən tapdağından qısa zamanda azad edəcəyik. Biz tezliklə qələbə qazanacağıq! "

- Aprel döyüşlərində bütün dünyaya sübut olundu ki, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etməyə hazırdır. Şəxsi heyətimiz doğma torpaqları uğrunda savaşda qarşısında heç bir əngəl tanımayacaq. Düşmənlərimiz bilməlidirlər ki, torpaqlarımız hansı yolla olursa olsun, azad olunacaq. Xalqımızın səbirsizliklə gözlədiyi günlərə çox az qalıb. Əsgər yoldaşlarımla Böyük Qələbə gününün sevincini Kəlbəcərdən, Laçından, Şuşadan... xalqımıza çatdıracağıq, - deyə Salyan rayonundan hərbi xidmətə çağırılan əsgər Röyal Tağıyev bildirdi.

**Baş leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan güləşçiləri dünya çempionatında daha üç medal qazanıblar



Rumıniyanın paytaxtı Buxarestdə 23 yaşadək güləşçilər arasında dünya çempionatı davam edir.

Azərbaycan millisi daha 3 medal qazanıb.

Yunan-Roma güləşçilərindən Murad Məmmədov (60 kq) və Kərim Cəfərov (67 kq) gümüş, Orxan Nuriyev (97 kq) isə bürünc medala sahib olublar.

M.Məmmədov finalda yaponiyalı Keniçiro Fumitaya, K.Cəfərov isə misirli Məhəmməd İbrahim Əlsəyidə uduzub. Əvəzində O.Nuriyev bürünc medal görüşündə İran təmsilçisi Əli Əkbər Heydərini sonuncu xal prinsipinə əsasən üstələyib.

Qeyd edək ki, çempionatın ilk günündə İslam Abbasov (87 kq) bürünc medal qazanıb.

## Güləşçimiz İslam Abbasov dünya çempionatının bürünc medalına sahib olub



Rumıniyanın paytaxtı Buxarestdə 23 yaşadək güləşçilər arasında dünya çempionatı davam edir.

İlk yarış günündə yunan-Roma güləşçilərimizdən ikisi mübarizəyə başlayıb. Ramiz Məmmədov (63 kq) mundiala inamlı start verib. Güləşçimiz səkkizdəbir finalda macar rəqibinə elə ilk hissədə qalib gəlməyi bacarıb. Ancaq güləşçimiz dördəbir finalda iranlı rəqibi ilə gərgin mübarizə şəraitində keçən görüşdə uduzub.

İslam Abbasov (87 kq) da səkkizdəbir final mərhələsini rahat keçib. Güləşçimiz Yaponiya təmsilçisini ilk hissədə məğlub edib. Növbəti görüş isə ağır keçib. İ.Abbasov gürcü güləşçinin də öhdəsindən gələrək adını yarımfinala yazdırıb. Ancaq İslam finalın bir addımlığında ukraynalı həmkarı ilə bacarmayıb. Güləşçimiz Misir təmsilçisi ilə bürünc medal görüşünə çıxıb. İlk hissəni 0:3 geridə başa vuran güləşçimiz ikinci hissədə əzmkarlıq nümayiş etdirib və sona yarım dəqiqə qalmış hesabı bərabərləşdirib. Beləliklə, sonuncu xal prinsipinə əsasən, İ.Abbasov ötən il olduğu kimi, yenə U-23 dünya çempionatında bürünc medal qazanıb.

## Karateçilərimiz dünya çempionatını üç medalla başa vurublar



Azərbaycan karateçiləri İspaniyanın paytaxtı Madriddə 24-cü dünya çempionatında uğurlu nəticə əldə ediblər.

İdmançılarımız yarışı bir qızıl, bir gümüş və bir bürünc medalla başa vurublar. İrina Zaretskanın (-68 kq) çempionluğu və Rafael Ağayevin (-75 kq) bürünc medal qazanması Azərbaycanı 140 ölkə arasında 7-ci pilləyə yüksəldib. Kişilərdən ibarət milli komandamız isə yaponiyalı idmançılara bürünc medal uğrunda həlledici görüşü 2:2 hesabı ilə başa vursa da, 4 xal fərqi ilə geridə qalaraq mükafat şansını əldən verib.

Dünya çempionatının rekord sayda iştirakçıları arasında 27 ölkə idmançısı medala sahib ola bilib. Karateçilərimiz bu nəticə ilə həm dünya reytinq cədvəlində irəliləyib, həm də Tokio Olimpiadasına lisenziya verən reytinq xallarını artırıblar.

Daha bir idmançımız Sahib Əhədov para-karate üzrə dünya çempionatının finalına yüksəlsə də, yapon rəqibindən 0,9 xal geri qalaraq gümüş medala layiq görülüb. Bu yarışda isə Azərbaycan 33 ölkə arasında 8-ci nəticə göstərib. Para-karate yarışlarında 11 ölkə idmançısı medal qazana bilib.

**AZƏRTAC-ın
materialları əsasında**

| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Ruslan HƏSƏNZADƏ | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 940 Nüsxə 3525 |